**UOT 792.03**

**Aidə Qafarova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət**
***Universitetinin doktorantı***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** **ayik17@mail.ru**

# AZƏRBAYCAN TEATR XADİMLƏRİ İTTİFAQIZAMAN MÜSTƏVİSİNDƏ

**Xülasə**: Yaranma və fəaliyyət tarixi milli teatrımızın inkişaf tarixi ilə sıx surətdə bağlı olan Azərbaycan Teatr Xadimləri İttifaqı Azərbaycanda teatr sənətinin yüksəlişi üçün durmadan çalışan yaradıcılıq təşkilatıdır. Aktyor, rejissor, dramaturq və teatr sahəsində çalışan digər peşə sahiblərini könüllülük əsasında birləşdirən bu qocaman sənət ocağı sələflərinin ənənəsini bu gün də layiqincə davam etdirərək teatr prosesini canlandırmaq, bütün yeni başlanğıclara təkan vermək, milli teatr sənətimizi çağdaş dünya teatr prosesinə qovuşdurmaq üçün bütün imkanlardan istifadə edir.

**Açar sözlər:** Azərbaycan, teatr, ittifaq, aktyor, festival.

Bu gün mütərəqqi dünyada baş verən inkişaf proseslərini izlədikcə zamanın irəliyə doğru axdığını düşünür, onun tələblərinə uyğun formada fəaliyyət proqramı qurmağa çalışır, topladığımız informasiya ilə yanaşı, keçmişin dayaqlarına, yəni atdığımız hər hansı uğurlu və ya uğursuz addımlar üzərində qazandığımız təcrübəyə söykənib gələcək fəaliyyətimizi müəyyən edirik. Və bu zaman mütləq şəkildə keçmişimizə qısa da olsa, ekskurs edib, qazandıqlarımızı və itirdiklərimizi həm zaman, həm dövrün tələbləri baxımından analiz edirik ki, bu da bizim gələcək inkişafımız üçün zəruri amillərdən biri sayılır.

Bu baxımdan yaranma və inkişaf tarixi milli teatrımızla sıx bağlı olan Azərbaycan Teatr Xadimləri İttifaqının fəaliyyəti zaman nöqteyi-nəzərindən qiymətli və təqdirəlayiqdir. Çünki teatr tariximizə nəzər salarkən ilk ziyalı cəmiyyətlərindən biri - Azərbaycan Teatr Xadimləri İttifaqının milli teatr tarixinin inkişaf mərhələlərindəki rolunu və xidmətlərini qeyd etməmək mümkün deyil.

Azərbaycan milli teatrının təşəkkül tapdığı vaxtdan - 10 mart 1873-cü ildən bəri teatr dəstələrinin pərakəndə fəaliyyətinin tənzimlənməsi, ayrı-ayrı bölgələrdə yaşayan sənətkarların vahid bir qurumda birləşdirilməsi, artistlərin hüquqlarının qorunması, onların sosial rifahının yaxşılaşdırılması, vaxtaşırı imkansız sənətkarlara yardım göstərilməsi məqsədi ilə Azərbaycanın maarifçi ziyalıları Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov qabaqcıl teatr xadimləri və aktyorların birliyini yaratmağa təşəbbüs göstərmiş, nəhayət 24 il sonra – 1897-ci ildə onların bu arzusu həyata keçmişdir.

Azərbaycanın çoxəsrlik, zəngin mədəniyyəti tarixində öz yerini müəyyənləşdirmiş, Qafqazın ən qocaman yaradıcılıq təşkilatı Azərbaycan Teatr Xadimləri İttifaqı özünün 120 illik tarixi dövründə «Artistlər İttifaqı», «Müsəlman Artistlər İttifaqı», «Türk Aktyorlar İttifaqı», "Azərbaycan Teatr Cəmiyyəti" adları altında fəaliyyət göstərmişdir.

Tarix boyu fəaliyyət proqramını zamanın tələblərinə uyğun şəkildə tərtib edən Teatr Xadimləri İttifaqı dövlət tərəfindən qəbul edilmiş qanunların yerinə yetirilməsi üzrə müəyyən edilmiş vəzifələrin həyata keçirilməsində bütün qüvvə və bacarığını sərf etmiş, Azərbaycan səhnə sənətinin inkişafında öz köməyini əsirgəməmişdir.

Keçən 120 il ərzində İttifaq xeyli inkişaf etmiş, möhkəmlənmiş, fəaliyyət dairəsini genişləndirmişdir.

XIX əsrin sonlarında 300 nəfərdən ibarət cəmiyyət kimi fəaliyyətə başlayan İttifaq XX əsrin 50-ci illərindən başlayaraq artıq teatr prosesinə və onun inkişafına təkan verən bir qurum kimi formalaşmış, güclü potensiala malik bir təşkilat kimi fəaliyyətini davam etdirmişdir. Zaman-zaman İttifaqın teatr prosesindəki aparıcı rolunu dərk edən səhnə xadimləri onun ətrafında daha sıx birləşərək fəaliyyət göstərmişlər.

Bütün dövrlərdə mədəniyyətin inkişaf etdirilməsi başqa sahələrin də tərəqqisinə yaxından kömək etmişdir. Bu baxımdan mədəni tərbiyə işinin həyata keçirilməsində ölkədə fəaliyyət göstərən digər yaradıcılıq birlikləri ilə yanaşı, Teatr Xadimləri İttifaqının fəaliyyəti də mühüm əhəmiyyət kəsb edirdi. Ədəbiyyat və incəsənət əsərlərinin təbliği istiqamətində Cəmiyyətin təşkil etdiyi ölkə ziyalılarının, yazıçı, bəstəkar, rəssam, kino və teatr xadimlərinin əmək adamları ilə görüşləri ayrıca yer tuturdu. Xalqın mənəvi tərbiyəsində mühüm rol oynayan belə tədbirlərin keçirilməsi üçün 1971-ci ildə ulu öndər Heydər Əliyevin himayədarlığı, Azərbaycanın xalq artisti Mustafa Mərdanov və əməkdar incəsənət xadimi Zəfər Nemətovun İttifaqa rəhbərliyi dövründə, onların gərgin əməyi sayəsində ərsəyə gəlmiş 370 nəfərlik möhtəşəm zal, qrim otaqları, kiçik səhnə, konfrans zalı və zamanın tələblərinə uyğun olan digər əlverişli şəraitə malik olan, hazırda İttifaqın fəaliyyət göstəriyi bina tikilib istifadəyə verilmişdir. Tarixi ənənələrini qoruyub saxlayaraq fəaliyyətini əzmlə davam etdirən Teatr Xadimləri İttifaqının rəhbərliyi və işçi heyəti dövrün tələblərinə cavab verən binada Azərbaycan milli teatr sənətinin inkişafı, təbliği və ölkə vətəndaşlarının mədəni səviyyəsinin yüksəlməsi istiqamətində, müasir dövrün tələblərinə uyğunyaradıcılıq planı əsasında bir sıra yeni layihələri həyata keçirdilər. Bu stabil fəaliyyət məlum Qarabağ hadisələrinə qədər davam etdi.

1988-ci ildə başlanan Qarabağ hadisələri, xalq kütlələrinin azadlıq hərəkatı, daha sonra 1990-cı ilin qanlı yanvar hadisəsi, SSR İttifaqının dağılması, ölkədəki siyasi-ictimai durumun ağır olması, fövqəladə vəziyyət şəraitində yaşayan Azərbaycanda mədəni kütləvi tədbirlərin keçirilməsinə əngəl yaradırdı. Bununla əlaqədar teatr sənətinin inkişafında da durğunluq müşahidə olunurdu. Lakin keçid dövrünün çətinliklərinə baxmayaraq bir an da olsun, fəaliyyətini dayandırmayan Teatr Xadimləri İttifaqı mövcud hadisələr zamanı azadlıq uğrunda aparılan mübarizədə daim xalqın içərisində, mübarizənin ön sıralarında olmuş, cəbhə bölgələrində, qaçqın düşərgələrində və digər əhəmiyyətli məkanlarda çıxış edərək Azərbaycan döyüşçülərini qələbəyə ruhlandırmış, Şuşada Milli Teatr Gününün keçirilməsinə nail olmuş, soydaşlarımızda ruh yüksəkliyi yaradaraq millətə dəstək olmuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə yeni dövlət quruculuğu dövrü başladı. Müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin mədəniyyətə, incəsənətə, o cümlədən teatr sənətinə olan böyük sevgisi, diqqəti və qayğısı sayəsində Azərbaycan teatrı ölkədə baş vermiş siyasi-ictimai hadisələrlə əlaqədar itirməkdə olduğu tarixi ənənə və dəyərlərini az bir zaman kəsiyində bərpa edərək yeni sənət üfüqlərinə üz tutdu.

Dövlətimizin mədəniyyət siyasətinə uyğun olaraq milli teatr sənətinin tərəqqisi, inkişafı və dünyada tanınması istqamətində həyata keçirilən bir sıra uğurlu layihələrin reallaşmasında Teatr Xadimləri İttifaqının da öz fəaliyyət payı vardır. Bu baxımdan milli teatr prosesində fəal iştirak edən İttifaq Azərbaycanın müstəqillik illərində müxtəlif formatlı teatr festivallarını keçirməklə milli teatr sənətinə öz dəyərli töhfələrini vermişdir. Bunlardan dörd «Monotamaşa», iki «Him-cim» (Pantomim), «Beynəlxalq «Him-Cim» Pantomim, iki «Eksperimental tamaşalar», «Festivallar festivalı», «Milli klassika», «Uşaq tamaşaları» Festivalı, Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə gənc rejissorların «Yeni teatr» Respublika Festivalı, «Beynəlxaq Çexov Festivalının «İpək yolu» mərhələsi», «Boş məkanın dolğunluğu», iki «2+1» Eksperimental teatr festivalı, Bakı Uşaq Teatrı ilə birlikdə iki "Bizim teatr" festivalı və sair tədbirlər Azərbaycanın teatr həyatında xüsusi canlanma yaratmış, teatr sənətinin inkişafında böyük rol oynamışdır. Hər keçirilən festivalda Azərbaycanın teatr aləmində yeni-yeni adlar meydana çıxmış, istedadlı gənclər yetişmişdir. Həmçinin Teatr Xadimləri İttifaqının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə keçirdiyi teatr rəssamlarının Biyennal sərgisi milli səhnəqrafiya sənətinin korifeylərinin və sənətə yeni qədəm qoyan teatr rəssamlarının yaradıcılığını özündə ehtiva etmişdir.

Teatr Xadimləri İttifaqı hər zaman yeni yaradıcılıq başlanğıclarına təkan verərək, gənc istedadların öz yaradıcılıq potensialını nümayiş etdirməsinə imkan yaratmışdır. İttifaqın keçirdiyi I «Him-Cim» Pantomim festivalında sənət meydanına atılmış «Dəli yığıncağı» teatr studiyasının əsasında Dövlət «Pantomim» teatrı yaranmış, «Yuğ», «Gənclər», «Marionet» teatrlarının yaranması və fəaliyyət göstərməsində İttifaqın böyük dəstəyi olmuşdur.

Bu gün müxtəlif beynəlxalq təşkilatlarla qurulan əməkdaşlıq münasibətlərində Azərbaycan Teatr Xadimləri İttifaqının da fəaliyyət payı vardır. Beynəlxalq teatr qurumları və xarici ölkə teatrları ilə

əlaqələr sahəsində İttifaq böyük uğurlar əldə edib. Azərbaycan Teatr Xadimləri İttifaqının xətti ilə teatrlarımızın müxtəlif festivallarda iştirakı, Beynəlxalq Çexov Festivalında İttifaqın nümayəndə heyətlərinin qatılması, YUNESKO-nun Beynəlxalq Teatr İnstitutu və Beynəlxalq Teatr İttifaqları Konfederasiyası ilə sıx əməkdaşlıq Azərbaycan teatrının dünyaya inteqrasiyası üçün gözəl zəmin yaratmışdır.

2010-cu ildə Beynəlxalq Çexov festivalının «İpək yolu» adlı bir mərhələsinin Bakıda keçirilməsi barədə əldə edilən razılaşmalarda və tədbirin həyata keçirilməsində İttifaq fəal iştirak etmişdir. Belə tədbirlərin keçirilməsinin Azərbaycanın teatr həyatına yeni nəfəs gətirməsi şəksizdir. Həmçinin İttifaq üzvü olduğu nüfuzlu beynəlxalq teatr qurumları ilə əməkdaşlığının daha da genişlənməsinə, teatr ictimaiyyətinin çağdaş dünya teatrının şedevrləri ilə tanış olmasına şərait yaratmışdır.

Azərbaycan Teatr Xadimləri İttifaqının keçirdiyi iri formatlı tədbirlərin sırasında ən önəmlisi məhz İttifaqın təklifi ilə Beynəlxalq Çexov Festivalının «İpək yolu» mərhələsinin Azərbayanın paytaxtı Bakıda keçirilməsidir. Bu festivalda paytaxt tamaşaçıları dünyada məşhur olan 3 çox möhtəşəm tamaşaya - Fransadan «Aureliyanın oratoriyası», Kanadanın Eluaz sirkinin «Yağış», Belorusiyanın Akademik Dram Teatrının «Toy» tamaşalarına 12 gün müddətində baxmaq imkanı əldə etmişlər.

Azərbaycan Teatr Xadimləri İttifaqının üzərinə düşən mühüm vəzifələrdən biri də onun teatrların bir növ salnaməçisi olması, onların tarixini yaratması, teatrın və ayrı-ayrı görkəmli səhnə ustalarının həyatı haqqında materiallar toplamasıdır. Bu baxımdan Azərbaycan Teatr Xadimləri İttifaqı özünün 120 illik tarixi boyu nəşriyyat işinə xüsusi önəm verib. Xüsusən son illərdə milli teatr sənətinin təbliği üçün son dərəcə vacib olan bu sahədə əhəmiyyətli irəliləyişə nail olunub. İttifaqın nəşr etdirdiyi əsərlər beynəlxalq təşkilatlara və ölkə kitabxanalarına təqdim olunmuşdur. Xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyi münasibəti ilə nəşr edilən kitab dramaturqun Parisdə, YUNESKO-da keçirilən yubileyində İttifaq tərəfindən tədbir iştirakçılarına təqdim olunmuşdur.

Bu gün Azərbaycan teatrının dünyaya inteqrasiyası üçün aparılan böyük işlər artıq öz bəhrəsini verməkdədir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış «Azərbaycan teatrı 2009-2019- cu illərdə» Dövlət Proqramında qeyd olunan müddəalara uyğun olaraq Bakıda keçirilmiş dörd Beynəlxalq Teatr konfransı, üç Beynəlxalq Kukla Teatrları Festivalı, Beynəlxalq Çexov Festivalının «İpək Yolu» mərhələsi, iki Şəki Beynəlxalq Teatr Festivalı və bir çox digər tədbirlər dünyanın diqqətini Bakıya yönəltmişdir. Bu tədbirlərdə dünyanın nüfuzlu, mötəbər teatr mütəxəssisləri iştirak etmiş, ölkədə teatr sənətinin gələcək inkişafı üçün yaradılan şəraitin şahidi olmuşlar. Azərbaycan teatrları dövlətin qayğısı və maddi dəstəyi ilə bir çox beynəlxalq layihələrə qatılmaq imkanı əldə etmişlər.

Azərbaycan Teatr Xadimləri İttifaqının tarixinə və çağdaş dövrünə qısa ekskurs edib qeyd olunan faktlara istinadən bu gün qürurla deyə bilərik ki, İttifaq dünya teatrının mütərəqqi ənənələrindən bəhrələnən Azərbaycanın milli teatr prosesindən bir an belə ayrı olmayıb və bütün zamanlarda bu prosesin canlandırılması üçün ölkəmizin mədəni həyatında mühüm rol oynayan tədbirlərin həyata keçirilməsi istiqamətində yorulmadan çalışıb və çalışır.

Sonda ulu öndərimiz Heydər Əliyevin bir fikrini yada salmaq istəyirəm. O, qeyd edirdi ki, "Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr etmişəm". Bu fikrin məntiqi davamı olaraq Azərbaycan Teatr Xadimləri İttifaqının üzvləri hər zaman zəngin tarixi köklərə malik olan teatr sənətimizin inkişafı üçün çalışır, milli mədəniyyətimizin zənginləşməsi naminə fəaliyyətindən qürur duyur.

**Ədəbiyyat:**


1. Qulam Məmmədli. Azərbaycan teatrının salnaməsi (1850 - 1920). – Bakı:Azərnəşr, 1975.
2. Azərbaycan Teatr Xadimləri İttifaqının 2009-2014-cü illərdəki fəaliyyəti haqqında hesabat. İttifaqın 23 iyun 2014-cü il tarixli hesabat konfransının materialları.



**Аида Гафарова**


**Взгляд на временные этапы становления**
**Союза театральных деятелей Азербайджана**

**Резюме**


В данной статье автор прослеживает не только этапы становления Союза деятелей театрального искусства, но и его укрепления в процессе развития национального театрального искусства. Эта культурная организация объединяет актеров, режиссеров, драматургов, а также, разных деятелей культуры, чтобы реализовать современные нововведения в сфере актерского мастерства, которые наблюдаются в мировой театральной жизни.



**Ключевые слова:** Азербайджан, театр, союз, актер, фестиваль.

**Aida Gafarova**

## A look at the stages of the formation of theAzerbaijani Theatre Workers Union

**Summary**

In this article, the author traces not only the stages of the formation of the Theatre Artists` Union, but also its strengthening in the process of the development of national theatrical art. This cultural organization unites actors, directors, playwrights, as well as various cultural figures, in order to realize modern innovations in the field of acting skills that are observed in the world of theatrical life.

**Key words:** Azerbaijan, theatre, union, actor, festival.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.11.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 29.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 14.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə elmlər doktoru, professor Məryam Əlizadə**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**